

QƏRBİ AZƏRBAYCAN

XX əsrin bəlası



*Türkiyənin Qars şəhərində fəaliyyət göstərən Qafqaz Universitetində "Qərbi Azərbaycan: Unudulmaz izlər" adlı beynəlxalq forum keçirilib.*

# "Qərbi Azərbaycan: Unudulmaz izlər" adlı beynəlxalq forum





Forum "İnkişafa və İslahatlara Dəstək" İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə baş tutub.

Tədbirin əsas məqsədi Qərbi Azərbaycanın zəngin mədəni irsini, tarixi yaddaşını və kulinariya ənənələrini nümayiş etdirmək, bu irsi daha geniş auditoriyaya tanıtmaq və gənc nəslə ötürməkdən ibarətdir. Forum Azərbaycan-Türkiyə münasibətləri kontekstində ortaq tarix yaddaşının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Forum iştirakçıları öncə Azərbaycan və Türkiyənin ərazi bütövlüyü uğrunda şəhid olmuş igid oğulların əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə **Qafqaz Universitetinin Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları Bölümünün rəhbəri, professor İlkin Gulusoy** bildirib ki, "Qərbi Azərbaycan məsələsi yalnız bir regionun deyil, bütövlükdə türk dünyasının tarixi yaddaşıdır. Bu kimi tədbirlər mədəni mirasın yaşadılması baxımından son dərəcə dəyərlidir".

**"İnkişafa və İslahatlara Dəstək" İctimai Birliyinin sədri Ramil Əliyev** Qərbi Azərbaycan irsinin dünyada tanıdılmasını "tarixi və mənəvi borc" adlandırıb.

**Ölkəmizin Qarsdakı Baş konsulu Zamin Əliyev** Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətlərinin bu cür layihələrlə daha da möhkəmləndiyini vurğulayıb: "Qərbi Azərbaycan bizim milli kimliyimizin ayrılmaz hissəsidir".

**Əslən Qərbi Azərbaycandan olan Qars Bələdiyyə başçısı Ötüken Senger** isə bu cür tədbirlərin şəhərin beynəlxalq mədəni platformaya çevrilməsinə də töhfə verdiyini ifadə edib. Onun sözlərinə görə, Qərbi Azərbaycan məsələsi xüsusi əhəmiyyətə malikdir və tarixi ədalətin öz yerini tapacağına əmin olduğunu bildirib:

"Mən də erməni zülmünə məruz qalmış, buna görə qədim ata-baba torpaqlarını tərk etməyə məcbur olmuş bir ailənin övladıyam. Qars Qərbi Azərbaycandan zorla qovulan Azərbaycan türklərinin sıx yaşadığı şəhərdir. Bu vəziyyət bizim üzərimizə xüsusi məsuliyyət qoyur. Uzun illər torpaqlarımıza iddialı olan Ermənistanın ilk etməli olduğu şey onun yaratdığı inciklikləri aradan qaldırmaqdır. Xalqımız öz ata-baba yurdlarına qayıtmaq istəyir. Bu gün Azərbaycan türkləri Azərbaycanda, Türkiyədə və dünyanın bir çox ölkələrində bu tələbləri səsləndirməyə başlayıblar. Biz ümumi və yerli hakimiyyət orqanları olaraq bu iradəyə biganə qala bilmərik".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov** qeyd edib ki, Qərbi Azərbaycan torpaqları tariximizin qan yaddaşıdır. "Gənc nəsil bu həqiqətləri öyrənməli və gələcəyə daşımalıdır".

Qərbi Azərbaycanla bağlı layihələrin həm milli kimliyin möhkəmlənməsi, həm də beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin tanıdılması baxımından böyük əhəmiyyət kəsb etdiyini ifadə edən **Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının üzvü Zaur İbrahimli** deyib ki, dövlət dəstəyi ilə həyata keçirilən bu tədbirlər gələcək fəaliyyət üçün çox önəmlidir.

**Azərbaycan-Türkiyə Qida Təhlükəsizliyi İctimai Birliyinin sədri Məhsəti Hüseynova** qeyd edib ki, Qərbi Azərbaycanın kulinariya irsi tarixi yaddaşın ayrılmaz hissəsidir. "Biz bu irsi qorumalı və nəsildən-nəslə ötürməliyik".

Sonda Qərbi Azərbaycan mətbəxinin incilərindən olan İrəvan kətəsi, İrəvanın şirin çörəyi, fəsəli və bir çox şirniyyatlar təqdim olunub, İrəvan şəhərinin dağıdılmış tarixi abidələrinin arxiv fotoları sərgilənib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**